**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**

Q Ə R A R

**№ 3**

**Bakı şəhəri** **26 may 2021-ci il**

Apellyasiya Şurası Dövlət Statistika Komitəsi sədrinin birinci müavini - Apellyasiya Şurasının sədri Vahab Feyruz oğlu Məmmədovun sədrliyi ilə Fərhad Ərəstun oğlu Əliyevin Dövlət Statistika Komitəsi aparatında Beynəlxalq əlaqələr şöbəsinin müdiri vəzifəsinin tutulması üçün 2021-ci il aprelin 23-də keçirilən daxili müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Əliyev Fərhad Ərəstun oğlu Dövlət Statistika Komitəsi aparatında Beynəlxalq əlaqələr şöbəsinin müdiri vəzifəsinin tutulması üçün 2021-ci il fevral ayının 1-də elan edilmiş daxili müsahibədə iştirak etmişdir. Müsahibə 2021-ci il aprelin 23-də Dövlət Statistika Komitəsinin Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinin müdiri Qasım Əliyev, Dövlət İmtahan Mərkəzinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Vəli Hüseyn və müstəqil ekspert Mehriban Babaxanovadan ibarət komissiya tərəfindən keçirilmişdir. Əliyev Fərhad Ərəstun oğluna müsahibə komissiyasının üzvlərindən Q.Əliyev 17 bal, V.Hüseyn 13 bal, M.Babaxanova isə 15 bal vermiş və nəticədə iştirakçı 15 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23 -1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 17.05.2021-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasında daxil olmuş şikayətlə əlaqədar müsahibə komissiyasının üzvlərinin rəyləri nəzərdən keçirilmişdir. Müstəqil ekspert M.Babaxanovanın rəyinə əsasən namizədin müsahibə proqramı üzrə bilikləri yaxşıdır, vakant vəzifənin tutulması üçün zəruri olan keyfiyyətlərə malikdir, lakin qanunvericilik və nəzəri bilikləri orta səviyyədədir. Dövlət İmtahan Mərkəzinin nümayəndəsi V.Hüseyn isə namizədin bilik səviyyəsi və peşə hazırlığını orta, vakant vəzifə üçün zəruri olan keyfiyyətlərini qənaətbəxş hesab etmişdir. Müsahibə komissiyasının digər üzvü Qasım Əliyev Apellyasiya Şurasının iclası zamanı bildirmişdir ki, namizədin müsahibə üzrə bilikləri yaxşıdır, nəzəri və qanunvericilik biliklərinin tətbiqi bacarığı və ümumi dünyagörüşü qənaətbəxşdir, şəxsi keyfiyyətləri, məsuliyyətliliyi, məqsədyönlülüyü vəzifə funksiyalarının yerinə yetirilməsini şərtləndirir. Eyni zamanda, namizədin statistika sistemindəki 19 illik iş təcrübəsini və 2016-cı il yanvarın 5-dən hal-hazıradək aparatın Beynəlxalq əlaqələr şöbəsində müdir müavini olduğunu nəzərə alaraq onu iddia etdiyi vəzifəyə uyğun hesab etmək olar.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Şikayət təmin edilsin, Əliyev Fərhad Ərəstun oğlunun Beynəlxalq əlaqələr şöbəsinin müdiri vəzifəsinin tutulması üçün 2021-ci il aprelin 23-də keçirilən daxili müsahibənin nəticəsi ləğv edilsin, namizəd vəzifəyə uyğun hesab edilsin.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətini üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.
3. Qərardan Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasına şikayət verilə bilər.

**Sədr** **Vahab Məmmədov**